**Azərbaycan Milli Elmlər Akademiyası**
**Hüseyn Cavidin Ev Muzeyi**

# "HÜSEYN CAVİD ƏBƏDİYYƏTİ"

## mövzusunda

## *II respublika elmi konfransının*

## MATERİALLARI

**Konfrans böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin anadan olmasının 138-ci ildönümü münasibəti ilə keçirilir.**

**Bakı, 26 oktyabr 2020-ci il**

**Fariz Qasımbəyli**
*AMEA Hüseyn Cavidin Ev Muzeyi*
*baş mütəxəssis*
*fariz.qasimbeyli@yandex.com*

# MİRZƏ ƏLƏKBƏR SABIR VƏ HÜSEYN CAVİD YARADICILIĞINDA ORTAQ İDEYALAR

Məlum olduğu kimi, ümumbəşəri din olan islam dini VII əsrin əvvəllərindən etibarən Azərbaycanda hakim bir dinə, islami dəyərlər də öz növbəsində zaman ötdükcə Azərbaycan türklərinin milli-mənəvi dəyərlərinin ayrılmaz bir parçasına çevrilmişdir. Ulu öndər Heydər Əliyev islami dəyərlərə yüksək qiymət verir, xalqımızın mənəvi sərvəti adlandırırdı: "Bizim mənəvi, islami dəyərlərimiz nəsillərdən-nəsillərə keçib, yaşayıb, gəlib bu günlərə çatıb. Bunlar bu gün də xalqımızın, millətimizin ən böyük mənəvi sərvətidir"[1, s.199].

Mövhumat və xurafat məsələsinə gəldikdə isə, ilk öncə onu qeyd etmək lazımdır ki, bunlar islam dininin nüfuzuna ən böyük zərbə vurmuş amillərdən biri, bunları doğuran səbəblər müxtəlif olsa da, qol-qanad açmasına rəvac verən başlıca səbəb cəhalət və savadsızlıq mühiti olmuşdur.

İstər dini düşüncəyə, o cümlədən islam dininə düşmən münasibət bəsləmiş sovet tədqiqatçıları, istərsə də bəzi müasir araşdırmaçılar mövhumat və xurafatın doğurduğu bir sıra ifadə, davranış və ayinləri islama aid elementlər kimi göstərməyə, Azərbaycanın görkəmli şair və yazıçıları tərəfindən bunların tənqid olunmasını da islam dininin, islam fəlsəfəsinin tənqidi, müəllifləri isə ateist kimi təqdim etməyə çalışmışlar. Lakin ətraflı və obyektiv tədqiq olunduqda tamamilə aydın olur ki, həmin mövhumat və xurafat ünsürlərinin islam dini, islam dünyagörüşü ilə heç bir bağlantısı, əlaqəsi yoxdur.

Əslində isə, mövhumat və xurafata qarşı mübarizə islam dininin saflığını, əsasını, özünü ortaya çıxarmağa, ona zərər vurmaqda olan bu ünsürlərdən arındırmağa yönəlmiş məqsədyönlü fəaliyyətdir. Mövhumat və xurafata qarşı mübarizə xalqın oyanması, tərəqqisi ilə bərabər, həm də birbaşa islama xidmətdir. Bunu gözəl başa düşən, XIX əsrin sonu, XX əsrin əvvəllərində xalqın cəhalət buxovlarından azad olması üçün çalışan Azərbaycanın tərəqqipərvər ziyalıları, aydın fikirli yazıçı, şair və publisistləri bu uğurda əzmkarlıqla mübarizə aparırdılar ki, Azərbaycan türklərinin yetişdirdiyi iki böyük qələm ustası – Mirzə Ələkbər Sabir və Hüseyn Cavid də həmin mübarizənin ön səflərində vuruşurdular.

Cavid Azərbaycan romantizminin və dramaturgiyasının olduğu kimi, Sabir də Azərbaycan satirik poeziyasının ən qüdrətli nümayəndələrindən biridir. Cavid Azərbaycan ədəbiyyatına ilk

mənzum faciə və dram müəllifi, Sabir isə "ədəbiyyat tariximizə süjetli satirik şeirin yaradıcısı, milli satirik şeirimizə ilk dəfə olaraq qırmanc, taziyanə, satirik bəhri-təvil, sual-cavab, satirik marş və s. kimi janrlar gətirmiş bir novator kimi daxil olmuşdur" [2, s.76]. Fərqli ədəbi cərəyanların nümayəndələri olmalarına, dil və üslub fərqliliklərinə baxmayaraq bu iki ölməz sənətkarın yaradıcılıq və mübarizəsində bir sıra ortaq məqamlar da mövcuddur.

Böyük Yaradana, islam peyğəmbərinə, islami dəyərlərə yaradıcılıqlarında daim ehtiram nümayiş etdirən Sabir və Cavid də xalqı mövhumat və xurafat viruslarından xilas etməyin vacibliyi üzərində diqqətlə dayanmışlar. Uşaqların kiçik yaşlarından tərbiyə aldıqları ailələrdə məruz qaldıqları, yoluxduqları xürafat xəstəliyinə diqqət çəkən Cavid yazırdı: "Biçarə çocuq iki-üç yaşından başlayaraq məktəb otağına girincəyə qadar xürafat uçurumlarında yuvarlanır gedər. Bir otaqdan digər otağa girəcək olsa "damdabaca"lar ilə qorqutulur. Başı açıq dışarı çıqacaq olsa göydən başına adamcıl qurt dərisi düşər. Qaranlıq bir yerə getsə cinlər, divlər ilə təhdid edilir. Hasili ənvai-mevhumat ilə zavallının mənəviyyatı alt-üst olur" [3, s.243].

Dahi satirik şair Sabirin də yaradıcılığının əsas qayəsini təşkil edən ən önəmli mövzulardan biri xürafat və mövhumata qarşı mübarizə məsələsi olmuşdur. Onun "Molla Nəsrəddin" jurnalının 26 may 1902-cı il tarixli nömrəsində "Hop-hop" imzası ilə çap olunmuş "Ol gün ki, sənə xaliq edər lütf bir övlad" satirasında valideynlərə öz satira üslubu ilə "məsləhət" gördüyü və cəhalət, savadsızlıq səbəbindən uşağın doğulduğu gündən etibarən məruz qaldığı xurafat ünsürlərini sadalayır:

*Ol gün ki, sənə xaliq edər lütf bir övlad,*
*Olsun ürəyin şad!*
*Tə'yin elə cindarı ki, etsin ona imdad,*
*Ta dəyməyə həmzad;*
*Sağdan sola, soldan sağa sal boynuna heykəl,*
*Qoy cinni məəttəl;*
*Min gunə tilismatə tutub eylə müqəffəl,*
*Gəzdir onu əl-əl;*
*Gər dəysə sovuq, sancılanıb olsa da bimar,*
*Hökm et gələ cindar;*
*Göstərmə təbibə o ciyərguşəni zinhar,*
*Qoyma ola murdar;*
*Aglarsa uşaq dərdinin axtarma dəvasın,*
*Ancaq söy anasın;*
*Qorxuzsun o da damdabaca ilə çagasın,*
*Kəssin də sədasın; [4, s.40].*

Quraqlıq vaxtı camaatın Allahdan yağış yağdırmasını diləyərək, müəyyən ayinlər icra etməsi – müsəllaya çıxması, "yerin öküzün buynuzu üstündə durmasına" inam da Sabirin satira dəyənəyinə tuş gələn mövhumatlardan olmuşdur:

Gahi yağışı, gahi müsəllanı danırsan,

Gahi öküzün üstə bu dünyanı danırsan [4, s.130].

Sabir bu mövhumatlara qətiyyən inanmamış və bunlara inanan cahil xalqı da bu məntiqsiz, gülünc "inanclardan" uzaqlaşdırmağa çalışmışdır. Lakin önəmlə vurğulamaq lazımdır ki, bu mövhumatların islam dini ilə uzaqdan, yaxından heç bir əlaqəsi yoxdur. Belə xurafatların çox vaxt riyakar mollalar, axundlar tərəfindən yayıldığını, təbliğ olunduğunu şair "Bakıda bir kənddə mühavirə" satirasında ustalıqla nümayiş etdirirdi. Cəhalətdən qurtulmağı bacarmış kəndlinin örnək göstərdiyi Quran təfsirlərini "maşa ilə yapışıb, əl də belə vurmayıram" – deyə pisləyən axund, ona "molla filankəsin yazdığı asarı" [əsərləri] məsləhət görür. Kəndçinin:

O yazıb: yer öküzün buynuzu üstündə durur,

Biz gərəkdir inanaq ki, kişi boylə buyurur?! [4, s.295].

– kinayəli sualı qarşısında, riyakar axund "öküzə şəkk etməsinə" görə ona lənət yağdırır. Bunlar Sabirin xəyal gücünün məhsulu deyil, zəmanəsinin acı həqiqətlərindən birinin onun satirasında ustalıqla əks olunmuş təzahürü idi.

Millətin gələcəyi olan övladların əksər hallarda ibtidai təhsilinin etibar edildiyi bu tip riyakar mollaların onlara öyrətdiyi ala-yarımçıq yazıb-oxumaq, əsasən, islamın əslindən uzaq mövhumat və xurafat dolu din dərsləri olurdu. Bəli, xurafat və mövhumat viruslarına müsəlman övladları, əksər hallarda, elə "təhsil aldıqları" mollaxanalarda yoluxurdular.

Öz dövrünün təlim-tərbiyə və təhsil problemlərinə həsr etdiyi "Həsbi-hal" adlı geniş silsilə məqalələrində Hüseyn Cavid müəllimlik peşəsi haqqında yazırdı:"Ciddi müəllim pək şərəfli, pək böyük bir adamdır; əgər üsuli-təlimi və öz vəzifəsini bilirsə. Cahil müəllim pək bayağı, pək aşağı bir insandır, əgər həddini aşıb təlim və tərbiyə meydanına atılırsa" [3, s.234]. Məktəblərdə dini fənlər tədris edən müəllimlərin bilikli, savadlı olmalarının, dinlər tarixi və din fəlsəfəsini bilmələrinin zəruriliyinə böyük dramaturq xüsusilə diqqət yönəldirdi: "Tarixi-ədyan, fəlsəfeyi-din bilməyən bir xoca hidayət, şəriət yerinə səfsətə, zəlalət toxumu saçar" [3, s.233].

Hər iki mütəfəkkir açıq ifadə edirdi ki, mövhumat və xurafat bəlasından qurtulmağın yeganə yolu xalqın savadlanması, elmə yiyələnməsi ilə mümkündür. Həm Cavid, həm də Sabir yaradıcılığında böyük hörmət və ehtiramla yad edilmiş islam peyğəmbəri – Məhəmməd peyğəmbərin müsəlmanları elmə, təhsilə çağırdığı bir sıra hədisləri vardır ki: "Elm Çində olsa belə, axtarışında olun. Elm axtarışında olmaq hər bir müsəlmana fərzdir. Allah elm istəyində olanı sevir" [5, s.60]

hədisi onun bu barədəki məşhur hədislərindən biridir. Bu hədisin önəmi və aşılanmasına hər iki şairin yaradıcılığında rast gəlməkdəyik.

Qız uşaqlarının təhsil almasının vacibliyini vurğulayan Cavid buna qarşı çıxanlara üzünü tutaraq yazırdı: "Rəsuli-əkrəm [Məhəmməd peyğəmbər] təlim və tərbiyədə hiç fərq qoymadığı halda təhsili-elmi kişiyə, övrətə müsavi bir surətdə fərz buyurduğu təqdirdə, nasıl olur da ki, böylə bir əmri-müqəddəsi hiç məsabəsində tuturuz" [3, s.243].

Millətin, islamın tərəqqisini əqidədaşları kimi, ilk növbədə xalqın cəhalət buxovlarından qurtulmasında, yeni üsul təhsilə və elmə yiyələnməkdə görən Sabir də islam dinində elmə, təhsilə böyük önəm verilməsini Məhəmməd peyğəmbərin həmin məşhur hədisini sitat gətirilməklə elmə çağırış edirdi:

Elm ilə olur hüsuli-izzət,
Elm ilə olur nüfuzi millət.
Elmə çağırır bütün əvamı,
"Əl-elmü fərizətün" kəlamı [69, s.85].

Yuxarıda qeyd olunanlardan da göründüyü kimi, Azərbaycan ədəbiyyatının hər iki parlaq siması – Mirzə Ələkbər Sabir və Hüseyn Cavid xalqının cəhalət buxovlarından qurtulması, həmçinin müqəddəs islam dininin, dini dəyərlərin dərki yolunda ən böyük maneələrdən biri kimi məhz mövhumat və xurafatı görmüşdür. Bunlardan qurtulmağın yeganə yolunun da, islam peyğəmbərinin dəvət etdiyi kimi elmə, biliyə yiyələnməkdə olduğunu yaradıcılıqlarında bariz şəkildə ifadə etmişlər.

**ƏDƏBİYYAT**

1. Heydər Əliyev siyasəti: Tolerantlıq [çıxışlar, nitqlər, görüşlər, təbriklər] / Ön söz: M.Qurbanlı. – Bakı: Elm və Təhsil, – 2015. – 504 s.
2. Qasımbəyli, F. Mirzə Ələkbər Sabir yaradıcılığında təsəvvüf fəlsəfəsinin təzahürü // – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əsərləri, – 2020. №1, – s. 76-84.
3. Cavid, H. Əsərləri: [5 cilddə] / H.Cavid, tərt. ed., T.Cavid. – Bakı: Elm, – c. 5. – 2007. – 352 s.
4. Sabir, M.Ə. Hophopnamə: [2 cilddə] / M.Ə.Sabir, tərt. ed., M.Məmmədov. – Bakı: Şərq-Qərb, – c. 1. – 2004. – 480 s.
5. Həzrət Məhəmmədin hikmət xəzinəsindən örnəklər. / tərt. ed. M. Qəmbərli. – Bakı: Şərq-Qərb, – 2012. – 248 s.
6. Sabir, M.Ə. Hophopnamə: [2 cilddə] / M.Ə.Sabir, tərt. ed., M.Məmmədov. – Bakı: Şərq-Qərb, – c. 2. – 2004. – 384 s.

***Fariz Gasimbayli***

## COMMON IDEAS IN THE CREATIVITY OF MIRZA ALAKBAR SABIR AND HUSEYN JAVID

There are a number of common features in the creativity and struggles of M.A.Sabir and H.Javid – the two great patriots and thinkers of Azerbaijani turks. Some parts of these common features are discussed in the article, the struggle against superstition and fable that prevent the development of the people and damage the islamic religion, as well as involving in education under the hadiths of the prophet of Muhammed have been investigated through the samples taken from the activities of the two thinkers.